# "London Universitet Kollecində dərs proqramı qısamüddətlidir"



## Böyük Britaniyada təhsil alan Fəridə Mustafazadə ilə söhbət

Fəridə Qadir qızı Mustafazadə 1992-ci il sentyabrın 24-də Bakı şəhərində anadan olub. 2010-cu ildə Bakıdakı 94 nömrəli tam orta məktəbdən məzun olub. 2010-2014-cü illərdə Türkiyənin Orta Doğu Texnik Universitetinin fənn-ədəbiyyat fakültəsinin riyaziyyat bölümündə bakalavr təhsili alıb. Türkiyə Cümhuriyyətinin dəstəyi ilə bir semestr Kanadanın Vaterloo Universitetində təhsil almaq imkanı qazanıb. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Böyük Britaniyanın London Universitet Kollecində maliyyə riyaziyyatı üzrə magistr təhsili alır. Hazırda magistr layihəsi üzərində işləyən Fəridə ilə söhbətimizə onun ilk təhsil illərindən başladıq.

### "Məktəbin ən seçilən şagirdlərindən olmuşam"

Orta məktəbdə oxuyarkən riyaziyyat, kimya, ingilis dili mənim ən çox sevdiyim fənlər idi. Rus bölməsini əla qiymətlərlə bitirmişəm, məktəbin ən seçilən şagirdlərindən olmuşam. Elə orta məktəb illərindən ali təhsilimi xaricdə nüfuzlu universitetlərdən birində almağı düşünürdüm. Mənə elə gəlir ki, özümü dərk edəndən xaricdə təhsil almaq arzusu ilə yaşamışam, hər zaman xaricdə oxumağı hədəf seçmişəm. Çox şükürlər ki, çətinliklərin öhdəsindən gəlməklə hədəflərimə çata bilmişəm. Təbii ki, atam və anamın, müəllimlərimin dəstəyi olmadan bunların heç biri mümkün olmazdı, çünki onlar mənə bu yolda mənəvi dəstək olublar, daim irəli getməyimi istəyib, önümə heç bir maneə qoymayıblar.

Xaricdə təhsil almaq hədəfimin reallaşması üçün "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na müraciət etdim. Mənim kimi tələbələrə bu cür fürsətin verilməsi əvəzolunmazdır. Burada digər ölkələrdən olan əcnəbi tələbə yoldaşlarım Dövlət Proqramı çərçivəsində təhsil aldığımı biləndə bizə sözün əsl mənasında həsəd aparırlar.

Xaricdə təhsil aldığım dövrdə, əlbəttə ki, ölkəmizin təhsil sistemində aparılan islahatları diqqətlə izləyirəm. Bütün dünyada olduğu kimi, ölkəmizin ali təhsil sistemində də müsbət dəyişikliklərin baş verməsi, "ADA" və digər universitetlərimizdə yeniliklərə önəm verilməsi ümumilikdə təhsil sistemimizin rəqabətliliyinin gücləndməsinə və Qərb təhsilinə daha da yaxınlaşmasına xidmət edir.

### "Çoxlarının xəyal etdiyi universitet"

Əsası 1826-cı ildə qoyulmuş London Universitet Kolleci (University College London) Böyük Britaniyanın elitar universitetlərindən hesab olunan Oksford, Kembric universitetlərinin daxil olduğu "Qızıl üçbucağ"ın üzvüdür. Dünya universitetlərinin reytinq cədvəllərində ilk sıralarda yerləşən ali məktəbin məzunlarından 29 nəfər Nobel mükafatına layiq görülüb. London Universitet Kolleci bir çoxlarının xəyal etdiyi universitetlərdəndir desəm, yanılmaram. İxtisasım maliyyə riaziyyatıdır. Əslində gözlədiyimdən daha çox riyaziyyat ixtisasıdır. Bu amilin mənim xeyrimə olduğunu deyərdim, çünki mən daha çox riyaziyyatla maraqlanmışam. İxtisasımla bağlı məmnunluğumu qeyd edə bilərəm.

Tələbə həyatım bir az ağırdır açığı, səbəbi isə dərslərin çətin olması deyil, London Universitet Kollecində dərs proqramı qısamüddətlidir. 10 həftə bizim bir semestrə bərabərdir, iki semestr içində biz 8 fənn və 3 proqramlaşdırma dili öyrənmişik. Asudə vaxtlarıma gəldikdə isə, daha çox dostlarımla vaxt keçirməyə üstünlük verirəm. Bundan başqa, mənim ən sevdiyim məşğələlərdən biri səyahət etmək və muzeylərə getməkdir ki, London da bu baxımdan olduqca rəngarəngdir. Arada Londonun əsrarəngiz təbiəti ilə seçilən parklarında gəzməyi çox sevirəm. Universitetimizin yerləşdiyi yerin ən böyük üstünlüklərindən biri ətrafımızda 3-4 belə parkın olmasıdır.

### "Burada müəllimlərə adları ilə müraciət olunur"

Universitetin müəllim həyəti və tələbələr arasında münasibətlərdən danışanda qeyd etmək istəyirəm ki, burada müəllimlərə öz adları ilə müraciət olunur. Bu məqam müəllim-tələbə münasibətlərinin hansı səviyyədə olduğunu göstərən ən əyani nümunədir. Mənim təhsil aldığım digər ölkələrdə rast gəldiyim ofis saatlarına (professorların məsləhət saatları) burada çox rast gəlmədim. Əlavə olaraq qeyd etmək istəyirəm ki, London Universitet Kollecinə magistr təhsili almaq üçün gəlmək istəyənlər bilməlidirlər ki, öz üzərlərində çox işləməlidirlər.

Gənclərimizin xaricdə təhsil almaq səylərini çox müsbət dəyərləndirirəm. Xaricdə təhsil, əvvəla, fərqli mədəniyyətlərlə tanış olmaq, onlarla ünsiyyətdə olmaq imkanı yaradır, insanın kreativliyini artırır, fərqli potensiallarını üzə çıxarır. Başqa bir tərəfdən, ailələrimiz bizə daim dəstək göstərməyə çalışarkən bəzən bizi nə qədər məhdudlaşdırdıqlarının fərqinə varmırlar. Ailədən uzağa çıxanda isə özümüz özümüzün qeydinə qalırıq, öz ayaqlarımız üstündə dururuq. Bu isə bizim daha müstəqil olmağımızda böyük rol oynayır.

Londonda təhsil dövründə eyni zamanda Azərbaycanla bağlı, ölkəmizin mədəniyyəti, milli adət-ənənələrinin tanıdılmasına həsr olunmuş tədbirlərdə fəal olmağa çalışmışam. Universitet yoldaşlarımla birlikdə ölkəmiz barədə diskussiyalar aparmışam və bundan daim zövq almışam. Əlavə olaraq, Londonda xalqımızın gözəl ənənələrindən olan Novruz bayramını qeyd edərkən Azərbaycan mədəniyyətini təmsil edənlərdən biri də mən idim.

Heç kimə sirr deyil ki, XXI əsr yüksək texnologiyalar əsridir. Bu əsrdə hansı ölkə biliyə, savada, yeniliyə daha meyillidirsə, o ölkə öz maraqlarını təmin edəcəkdir. Mən də bu əsrin yetirməsi olaraq istərdim ki, Azərbaycanın dünya səviyyəsində maliyyə bazarının formalaşmasında öz rolumu oynayım.

Gələcək planlarımla bağlı danışarkən uzunillik təhsil həyatımın sonunda bir il iş təcrübəsi əldə etmək istəyirəm. Müəyyən fasilədən sonra isə 5-6 il ərzində doktorantura təhsilimi də bitirməyi düşünürəm.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*